İyun 2016

# PwC Azerbaijan Times

## 16 saylı Buraxılış

***Buraxılışın əsas xəbərləri:***

- **Dövlət müəssisələri tərəfindən həyata keçirilən elektron xidmətlər sisteminə dəyişiklik**
- **Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının "Malların beynəlxalq alqı-satqısına dair müqavilələr haqqında konvensiyana" qoşulmuşdur**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Dövlət müəssisələri tərəfindən həyata keçirilən elektron xidmətlər sisteminə dəyişiklik*

Dəyişikliklər “ASAN xidmət indeksi”ni təşkil edən parametrləri rəhbər tutmaqla, Elektron Reyestrə daxil edilmiş xidmətlərin qiymətləndirilməsi üçün nəzərdə tutulmuşdur.

“ASAN xidmət indeksi” 7 tərkib hissədən ibarətdir: xidmət barədə məlumatlandırma, xidmətə müraciət imkanları, xidmətin göstərilmə müddəti, xidmətin təşkilində istifadə edilən informasiya ehtiyatlarının elektronlaşdırılması və digər dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyası, xidmətlərin təşkili ilə bağlı əməkdaşlara təlim keçilməsi, şikayət və nəzarət mexanizmləri, vətəndaş məmnunluğunun ölçülməsi mexanizmləri.

Bundan əlavə, dövlət xidmətləri barədə məlumatlandırmanın vahid mənbədən həyata keçirilməsi üçün müvafiq mərkəz yaradılmışdır.

### *Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının "Malların beynəlxalq alqı-satqısına dair müqavilələr haqqında konvensiyana" qoşulmuşdur*

Konvensiya beynəlxalq ticarət qaydalarının birləşdirilməsini nəzərdə tutur. Azərbaycan üçün bu Konvensiya 1 iyun 2017-ci il tarixindən qüvvəyə minəcək.